Ədəbiyyat qəzeti

20 19 iyun 2021-ci il

# Qərib MEHDİ - 85



Hörmətli Qərib Mehdi!

Sizi, görkəmli yazıçımızı 85 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 21 iyun 1936-cı ildə indiki Qəbələ rayonunun Mirzəbəyli kəndində anadan olmuş, kiçik yaşlarınızda ikən ailələiklə Gəncə şəhərinə köçmüsünüz. Burada 3 saylı fəhlə-gənclər axşam məktəbini bitirmisiniz (1995). Bir müddət fəhlə əməyinin müxtəlif sahələrində çalışmış, sonra Gəncə Dövlət Pedaqoji İnstitutunda qiyabi təhsil almısınız. 1965-1971-ci illərdə 16 saylı Gəncə şəhər məktəbində dərs demisiniz. 1971-ci ildən etibarən Gəncə Dövlət Pedaqoji Universitetində çıxan "Yüksəliş" qəzetinin redaktoru vəzifəsində çalışırsınız. Eyni zamanda çağdaş ədəbi həyatımızda yetərincə tanınan bir çox şair və yazıçıların yetişdiyi "İlham" ədəbi birliyinin yaradıcısı və rəhbərisiniz.

Yaradıcılığa erkən yaşlarınızdan başlamısınız. İlk hekayəniz olan "İşığın qəzəbi" 1958-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc edilib. "Rast", "Yaralı mərmər", "Ucalan dağlar", "İşıq", "Təmiz hava", "Səndən sonra", "Çinar günü", "Müsabiqə", "Qəhqəhə", "Kentavr-lətifələr", "Hamını oxumağa çağıran adam", "Bu qızı eşit, İlahi", "Gül əvəzinə söz", "Küləklər ağzında şam işığı", "Nizami Aydın şəhidliyi", "Tanıdığım adamlar", "Kim yatmış, kim oyaq?", "Gəncəm mənim, bircəm mənim" və s. kitablarınız işıq üzü görüb.

Siz çoxsaylı ədəbi yetirmələri olan nadir yazıçılarımızdansınız. Əməkdar jurnalist kimi publisistik fəaliyyətiniz də sizə dərin oxucu sevgisi qazandırıb. "Həsən bəy Zərdabi", "Məmməd Araz" ali ədəbi mükafatları laureatısınız. Ədəbiyyat qarşısındakı böyük xidmətlərinizə görə Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Mükafat Komitəsi tərəfindən "Şərəf və Vicdan", eyni zamanda Sergey Yesenin adına "Qızıl payız" ordenlərinə layiq görülmüsünüz. "Oxşarlar" pyesiniz Gəncə Dövlət Dram Teatrında tamaşaya qoyulub.

İncə yumorun, satirik gülüşün sarkazm dərəcəsinə qaldırdığı hekayə və pamfletlər, müasirlərinin ciddi problemlərini müxtəlif aspektlərdən işıqlandıran bədii-publisistik əsərlər, ədəbi-tənqidi, lirik-fəlsəfi düşüncələrin orijinal ifadəsi olan müxtəlif janrlı yazılarınız dərin maraqla qarşılanır.

Hörmətli Qərib Mehdi!

Sizi bir daha 85 illik yubileyiniz münasibətilə təbrik edir, sizə cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**